**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT İDARƏÇİLİYİNİN İNNOVATİV İNKİŞAFININ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

İxtisas: 5904.01 – "Siyasi institutlar və sistemlər"

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Fəridə Məmmədağa qızı Əlirzayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının «Politologiya və siyasi idarəetmə» kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: fəlsəfə elmlər doktoru, professor
**Nigar İbrahim qızı Ələkbərova**

Rəsmi opponentlər: siyasi elmlər doktoru, professor
**Aqiyə Həbib qızı Naxçıvanlı**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Afət Ağa Əli qızı Səfərova**

siyasi elmlər üzrə fəlsəfə doktoru
**Rəşad Rəhim oğlu Məhərrəmov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurası

**Dissertasiya şurasının sədri:** Akademik
__________ **Urxan Kazım oğlu Ələkbərov**

**Dissertasiya şurasının elmi katibi:**
siyasi elmlər doktoru, professor əvəzi
__________ **Sevda Ağamirzə qızı Əliyeva**

**Elmi seminarın sədri:**
siyasi elmlər doktoru, professor əvəzi
__________ **Sevil İmamverdi qızı Məmmədova**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrdə dünya dövlətlərinin siyasi, iqtisadi idarəetmə sektorlarının fəaliyyətində innovasiya, innovativ texnologiyalarının tətbiqi məsələləri önə çıxmaqdadır. Təhlillər göstərir ki, o dövlətlər daha çox uğura malik olmuşlar ki, öz milli dövlətçilik ənənələrini müasir dövrün tələbi olan innovativ dəyərlərlə əlaqələndirə və uzlaşdırmağa nail ola bilmişlər. Azərbaycan Respublikası da məhz bu göstəricilərə görə əsaslı nailiyyətlər əldə edir. Xüsusilə də, son on illiklərdə Azərbaycan dövlətinin innovativ inkişaf siyasəti sahəsində atdığı addımlar, həyata keçirdiyi layihələr bu istiqamətdə uğurların qazanılmasına imkan yaratmaqla bərabər, bu siyasətin həm də elmi-nəzəri baxımdan geniş tədqiqatların obyekti olmasını şərtləndirir.

Bu məsələlərə böyük əhəmiyyət verən Ümummilli Lider Heydər Əliyev qeyd edirdi: "*Biz öz daxili siyasətimizdə çalışırıq ki, Azərbaycanın dövlət quruculuğu, cəmiyyətin təşkil edilməsi və iqtisadiyyatın inkişafı dünya dövlətlərinin təcrübəsi əsasında olsun və beləliklə də, Azərbaycan Respublikası dünya miqyasında öz layiqli yerini tuta bilsin*"[1]. Bütün bunlar Ulu öndərimizin hər zaman Azərbaycan xalqının mütərəqqi inkişafını düşündüyünü ifadə edir.

Müasir dünyanın siyasi təcrübəsi inamla sübut edir ki, ən mühüm nailiyyətlərə məhz dövlət idarəçiliyində innovativ prinsiplərə əsaslanan dövlətlər nail olurlar. Dövlət öz resurslarını effektiv, optimal şəkildə idarə etdikdə və onların davamlılığını təmin etdikdə uğurlar qazanır. İqtisadi potensialını və rəqabət üstünlüklərini intensiv şəkildə artıran Azərbaycan Respublikası təbii resurslarla zəngin ölkələr qrupuna daxil olmasa da, məhdud resursların optimal idarə edilməsi sayəsində iqtisadi, sosial, siya-

[1] Əliyev, H.. Müstəqillik yolu: seçilmiş fikirlər / H. Əliyev, tərt. ed., Ə.Şahlar, X.Saləddin. - Bakı: Azərbaycan Universiteti nəşriyyatı, -1997. - 136 s. s. 6.

si və digər sferalarda yüksək nəticələr əldə etmişdir. Ölkə Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında" Sərəncamında qeyd olunduğu kimi, "innovativ inkişaf elmi nailiyyətlər, biliklər və rəqəmsal yeniliklər bazasında məhsulların, xidmətlərin, texnologiyaların, proseslərin hazırlanmasına, təqdimatına və istifadəsinə əsaslanır"[2].

Dissertasiya mövzusunun aktuallığını və tədqiqatın əhəmiyyətini ümumiləşdirmiş şəkildə aşağıdakı müddəalarla ifadə edə bilərik:

- innovativ mexanizmlərin dövlət idarəçiliyində tətbiq olunması bütövlükdə dövlət idarəçiliyində ciddi keyfiyyət dəyişikliyini şərtləndirir. Ümumiyyətlə, cəmiyyətdə və dünya miqyasında baş verən sosial, iqtisadi və mədəni dəyişikliklər bütövlükdə dövlət idarəetməsi sahəsində yeni yanaşmaları tələb edir. Bunlar da innovativ mexanizmlərdə öz ifadəsini tapır ki, bu məsələlərin öyrənilməsi xüsusi aktuallıq kəsb edir;
- dövlətin seçdiyi innovativ inkişaf yolu müvafiq dövlət mexanizmini tələb edir. İnnovasiyaların idarə edilməsinin dövlət mexanizmi milli inkişafın əsas dəyərlərinə uyğun olaraq təşkil edilməlidir. Milli inkişafın əsas dəyərlərinə uyğun təşkil edilən innovasiyaların idarə edilməsinin dövlət mexanizmi sosial, iqtisadi, maliyyə, nəqliyyat və logistika, elmi məqsədlərin müəyyən edilməsini və planlaşdırılan nəticələrin əldə edilməsini müəyyən edir. Bu gün Azərbaycanda həyata keçirilən və gələcək üçün nəzərdə tutulan siyasi, iqtisadi, sosial və humanitar proqramların əsasını innovativ inkişaf təşkil edir ki, bu da mövzunun aktuallıq səviyyəsini daha da artırmış olur;
- müasir şəraitdə Azərbaycan Respublikasının həm sosial-iqtisadi fəaliyyətində, həm də beynəlxalq aləmdə təhlükəsiz-

---

[2] Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında" 881 nömrəli Sərəncamı. 10 noyabr, 2019-cu il . URL: https://president.az/articles/31491

liyinin təmin olunmasında dövlət idarəçiliyinin rolu artır. Qlobal çağırışlara cavab olaraq Azərbaycan Respublikasında fundamental inkişaf istiqamətlərinin müəyyən edilməsi, milli hədəflərin həyata keçirilməsi, cəmiyyətin modernləşdirilməsi istiqamətində strategiya və konsepsiyaların reallaşdırılması ölkəmiz qarşısında yeni məqsədlər qoyaraq dövlət idarəçiliyi sistemində innovativ inkişaf modelini hazırlamaq zərurətini qoymuşdur;

- Azərbaycan Respublikasında dövlət idarəçiliyinin səmərəliliyinin artırılması, innovativ inkişafın təmin olunması üçün yeni reallıqlara uyğun elementlərin əlavə olunması ilə təkmilləşdirilməsi vacibdir. Cəmiyyətin ümumi vəziyyəti dövlət idarəçiliyinin innovativ inkişafı səviyyəsindən birbaşa asılıdır. Bu mənada dövlət idarəçiliyində innovasiyaların tətbiq edilməsi onun səmərəliliyinin artırılmasının əsas şərtlərindən biri kimi qəbul olunmaqdadır;
- dövlət idarəçiliyinin təkmilləşdirilməsi idarəçilik sahəsində tətbiq olunan innovasiyalardan və kadr siyasətinin səmərəli şəkildə həyata keçirilməsindən birbaşa asılıdır. Müasir dövrdə dünya miqyasında davamlı inkişafın təminatçısı kimi insan potensialının formalaşdırılması və onun insan kapitalına çevrilməsi çıxış edir. Azərbaycan Respublikası bu istiqamətdə olduqca böyük uğurlar əldə edir;
- Azərbaycan dövlətinin innovativ inkişaf siyasəti sahəsində atdığı addımlar, həyata keçirilmiş layihələr bu istiqamətdə uğurların əldə olunmasına imkan yaratmaqla paralel, həm də elmi-nəzəri baxımdan tədqiqat işinin obyekti olmasını zəruri edir;
- Azərbaycan Respublikasının dövlət idarəçiliyinin müxtəlif sahələrində innovativ inkişafın təmin edilməsi az miqdarda maddi resurslar hesabına həyata keçirilir. Məhdud resurslarla daha yaxşı nəticələrin əldə edilməsi innovativ idarəetmə texnologiyalarından istifadədən, resursların optimal idarə edilməsindən, insan potensialının inkişafından asılıdır ki, bu məsələnin öyrənilməsi xüsusi aktuallıq kəsb edir;

- Azərbaycan Respublikasının dövlət idarəçiliyində innovativ inkişaf həm sosial-iqtisadi, həm də siyasi sahələrdə həyata keçilərkən xarici ölkələrin bu sahədəki təcrübəsi nəzərə alınmaqla yaradıcı şəkildə istifadə olunmalıdır ki, bu da həmin təcrübənin Azərbaycan siyasi elmi çərçivəsində öyrənilməsini zəruri edir və tədqiqat problemini aktuallaşdırmış olur.

Problemin işlənmə dərəcəsi təhlil edilərkən dissertasiya işinin yazılması prosesində mövzunun müxtəlif aspektlərinə həsr olunmuş Azərbaycan, türk, rus, və ingilis dillərində elmi ədəbiyyat və mənbələr geniş şəkildə araşdırılmışdır.

Azərbaycan dilində tədqiqat problemin araşdırılmasına töhfə vermiş müəlliflərdən U.Ələkbərov, Z.Həbibova, R.Rəhimli, R.Mehdiyev, M.Həsənov, S.Qəndilov, İ.İsmayılov, E.Əliyev, N.Hüseynova, R.Məhərrəmov, E.Hacalıyev, Ü.Mehdiyev və başqa bu kimi alim və tədqiqatçıların adlarını çəkə bilərik[3].

Dövlət idarəçiliyi sistemində innovativ inkişafın təmin edilməsi sahəsində akademik U.Ələkbərovun adını xüsusi qeyd etmək lazımdır. Akademik U.Ələkbərovun bu istiqamətdə çoxsaylı kitab və məqalələri vardır. Onun "Davamlı inkişaf naminə kadr potensialının təkmilləşdirilməsi: Azərbaycan modeli". "İnklüziv inkişafın idarə edilməsinin əsasları" eləcə də yerli və xarici jurnallarda dərc olunmuş "Heydər Əliyev ideyaları Azərbaycanın innovativ inkişafının zəmini kimi", "Davamlı inkişaf naminə səmərəli idarəetmə: Azərbaycan Respublikasının nailiyyətləri beynəlxalq təşkilatların hesabatlarında", "Müasir

---

[3] Ələkbərov, U. Müasir dövlət idarəçiliyinin təşkilati əsasları: 15 il innovativ inkişaf yollarında : [Elektron resurs] / 2019. URL: https://dia.edu.az/arxivl%C9%99r/11769; Həbibova, Z. Dəyişikliklərin idarə olunması və dövlət idarəçiliyi : [Elektron resurs] / 2018. URL: http://www.anl.az/el/Kitab/2019/04/2018-2356.pdf; Мехтиев, Р. На пути к демократия: размышляя о наследии / Р. Мехтиев. - Баку: Шерг-Герб, - 2007. – 752 с.;Mehdiyev, R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti / R. Mehdiyev. - Bakı: Şərq-Qərb, - 2008. - 216 s.

dövlət idarəçiliyinin təşkilati əsasları: 15 il innovativ inkişaf yollarında", "Qlobal fövqəladə şəraitdə innovativ dövlət idarəçiliyi texnologiyaları: Azərbaycanın təcrübəsi", "Azərbaycan Respublikasının inklüziv inkişaf indeksi ölkənin innovativ inkişafının göstəricisi kimi" və s. əsərlərində dövlət idarəçiliyində innovativ inkişafa dair məsələlər öz ifadəsini tapır[4].

Akademik Urxan Ələkbərovun "İnklüziv inkişafın idarə edilməsinin əsasları" adlı kitabında qeyd olunur ki, dövlətin inkişafında əldə olunan uğurlar və vətəndaşların rifahını təmin edən inklüziv inkişaf müasir dövlət idarəçiliyinin prioritet istiqamətlərindəndir və qeyd olunan bu məqamlar innovativ idarəetmə texnologiyaların dövlət idarəçiliyində tətbiqi ilə əlaqədardır[5].

Dövlət idarəçiliyinin təkmilləşdirilməsi və bu sahədə innovasiyaların tətbiqinə töhfə vermiş müəlliflərdən R.Rəhimlinin

---

[4] Ələkbərov, U. Davamlı inkişaf naminə kadr potensialının təkmilləşdirilməsi: Azərbaycan modeli / U. Ələkbərov. – Bakı: Elmin İnkişafı Fondu, - 2018. - 249 s.; Ələkbərov, U. İnklüziv inkişafın idarə edilməsinin əsasları / U. Ələkbərov. – Bakı: Təhsil, - 2018. – 216 s.; Ələkbərov, U. Heydər Əliyev ideyaları Azərbaycanın innovativ inkişafının zəmini kimi: [Elektron resurs] – 5 may, 2017-ci il. URL: https://www.elibrary.az/docs/QAZET/qzt2017_1738.htm; Ələkbərov, U. Davamlı inkişaf naminə səmərəli idarəetmə: Azərbaycan Respublikasının nailiyyətləri beynəlxalq təşkilatların hesabatlarında adlı məruzə ilə çıxış edib: [Elektron resurs] / 2016. URL: http://mail.tehsil.im/?m=yazi&id=2448; Ələkbərov, U. Müasir dövlət idarəçiliyinin təşkilati əsasları: 15 il innovativ inkişaf yollarında : [Elektron resurs] / 2019. URL: https://dia.edu.az/arxivl%C9%99r/11769; Ələkbərov, U. Qlobal fövqəladə şəraitdə innovativ dövlət idarəçiliyi texnologiyaları: Azərbaycanın təcrübəsi: [Elektron resurs] / 2020. URL: https://azertag.az/xeber/Qlobal_fovqelade_seraitde_innovativ_dovlet_idarechiliyi_texnologiyalari_Azerbaycanin_tecrubesi-1503967; Ələkbərov U.K. Azərbaycan Respublikasının inklüziv inkişaf indeksi ölkənin innovativ inkişafının göstəricisi kimi // - Bakı: Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı, 2018. №1(61), - s.133-144.

[5] Ələkbərov, U. İnklüziv inkişafın idarə edilməsinin əsasları / U. Ələkbərov. – Bakı: Təhsil, - 2018. – 216 s.

adını qeyd edə bilərik. Onun “Dövlət qulluğunda innovasiyaların yeni mərhələsi” eləcə də Türkiyədə dərc edilən “Azerbaycan Devlet Personel Yönetimi”, “Azerbaycan Kamu Personel Yönetimi”, “Azerbaycanda yönetsel alanda yeniden yapılma ve inovatif gelişim stratejisi” və s. bu kimi araşdırmalarında dövlət qulluğunun təkmilləşdirilməsində islahatların rolu diqqətə çatdırılır[6].

Azərbaycan Respublikasında dövlət idarəçiliyinin inkişafına dair Z.Həbibovanın da dəyərli tədqiqatlarını qeyd edə bilərik. Onun “Dəyişikliklərin idarə olunması və dövlət idarəçiliyi”, “Azərbaycanın uğurlu formulu: novator lider və peşəkar dövlət qulluğu” və s. bu kimi əsərləri mövzu ilə bağlı əhəmiyyətli mənbələrdəndir[7].

Dövlət idarəçiliyi, kadr siyasəti problemlərini fəal şəkildə araşdıranlar biri də N.Hüseynovadır. N.Hüseynovanın “Dövlət qulluğu və kadr siyasəti” adlı əsərində dövlət qulluğu, kadr siyasətinin mahiyyəti və onların müxtəlif aspektləri təhlil edilir[8].

Rəşad Məhərrəmovun “İnnovativ fəaliyyətin siyasi sistemdə tətbiqi (Azərbaycan 2020: gələcəyə baxış inkişaf konsepsiyası çərçivəsində)” adlı elmi- tədqiqat işi Respublikamızda

---

[6] Rehimli R. Z. Dövlət qulluğunda innovasiyaların yeni mərhələsi // - - Bakı: Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı, 2018. № 4(64), - s.225-236.; Rehimli R. Z. Azerbaycanda yönetsel alanda yeniden yapılma ve inovatif gelişim stratejisi // - İstanbul: Türk Disaporu ve Türk Dünyası Vizyon, 2014. - s. 337-355.; Rehimli, R. Azerbaycan Devlet Personel Yönetimi / R. Rəhimli. – Ankara: Kültür Ajans Yayınları, - 2011. - 256 s.;
Rehimli, R. Azerbaycan Kamu Personel Yönetimi / R. Rəhimli. – Eskişehir: Anadolu Üniversitesi yayını, - 2016. - 275 s.

[7]Həbibova, Z. Dəyişikliklərin idarə olunması və dövlət idarəçiliyi: [Elektron resurs] / 2018. URL: http://www.anl.az/el/Kitab/2019/04/2018-2356.pdf; Həbibova, Z. Azərbaycanın uğurlu formulu: novator lider və peşəkar dövlət qulluğu : [Elektron resurs] – 23 iyun, 2020-ci il. URL: https://www.azerbaijan-news.az/index.php/posts/detail/azerbaycanin-ugur-formulu-novator-lider-ve-pesekar-dovlet-qullugu-191798

[8] Hüseynova, N. Dövlət qulluğu və kadr siyasəti / N.Hüseynova. - Bakı: ADİLOĞLU, - 2013. - 300 s.

aparılan innovativ fəaliyyətin məqsədini, istiqamət və formalarını müəyyən edir[9].

Elnur Hacalıyevin "Siyasi demokratiyanın formalaşması prosesində cəmiyyətin siyasi modernləşməsi" adlı elmi-tədqiqat işi modernləşmənin forma mexanizmləri mövcud cəmiyyətin sosial-iqtisadi və mənəvi tarixi yetkinlik səviyyəsindən asılı olmasının təsvirinə həsr edilmişdir. Elmi-tədqiqat işində qeyd olunur ki, Azərbaycanın siyasi modernləşməsi ölkədə modernləşmənin metodlarının sivil, demokratik olması və müxtəlif qrupların ölkənin siyasi həyatına cəlb edilməsi ilə bağlıdır[10].

Dövlət idarəçiliyi, innovativ inkişaf, innovativ dövlət idarəçiliyi və s. bu kimi problemlərin nəzəri-metodoloji prinsipləri ilə bağlı türkdilli ədəbiyyatlarda türk tədqiqatçıları bir sıra dəyərli əsərlər ortaya qoyulmuşdur. Bu sahənin tədqiqatçılarından xüsusi olaraq Müfit Akyosun "Kamuda İnovasyon", Onur Aslanın "Devlet bürokrasi ve kamu personel rejimi" digər müəllifləri və onların bu sahədə ərsəyə gətirdikləri tədqiqatları misal çəkə bilərik[11]. Gökmen Səmranın "Beynəlxalq arenada xarici siyasətin öyrənilməsi" adlı kitabında dövlətin innovativ potensialı və geosiyasi amili hərtərəfli təhlil edilmiş və bütün bunların xarici siyasətin istiqamətlərini müəyyən etməsi kimi diqqətə çatdırmışdır[12].

Dövlət idarəçiliyi sistemi, innovativ inkişaf, innovativ dövlət idarəçiliyi sahəsində Rusiyada çoxsaylı elmi əsərlər yazıl-

---

[9]Məhərrəmov, R.R. İnnovativ fəaliyyətin siyasi sistemdə tətbiqi "Azərbaycan 2020: gələcəyə baxış inkişaf konsepsiyası çərçivəsində): / siyasi elmlər üzrə fəlsəfə doktoru dis.avtoreferatı. / - Bakı, 2017. - 21 s.

[10]Hacalıyev, E.B. Siyasi demokratiyanın formalaşması prosesində cəmiyyətin siyasi modernləşməsi: / siyasi elmlər üzrə elmlər doktoru dis.avtoreferatı. / - Bakı, 2021. - 42 s.

[11] Akyos, M. Kamuda İnovasyon / M. Akyos. - İstanbul: - 2007. - 170 s.;Aslan, O. Devlet bürokrasi ve kamu personel rejimi / O. Aslan. - Ankara: İMGE Kitabevi, - 2012. - 432 s.

[12]Gökmen, R. Geopolitics and the study of international relations / R.Gökmen. – Ankara: School of Social Sciences of Middle East Technical University, - 2010. – 226 p.

mışdır. Bu kontekstdə araşdırma aparmış tanınmış tədqiqatçılardan A.İ. Priqojin, V.P.Kolesova, M.N.Osmova və başqalarının adlarını çəkə bilərik[13].

Bu istiqamətdə tanınmış rusiyalı tədqiqatçı R.A. Fatxutdinovu xüsusi vurğulamaq olar. R.A. Fatxutdinov "İnnovativ idarəetmə" dərsliyində innovasiyaların inkişafı və tətbiq edilməsi proseslərini müəyyənləşdirmişdir[14].

Digər tanınmış rusiyalı tədqiqatçı A.İ.Turçinov dövlət idarəçiliyi, innovativ inkişaf probleminin yaxından araşdırıcısıdır. A.İ.Turçinov "Rusiyada kadr təhlükəsizliyi: probleminin formalaşdırılması" adlı tədqiqatı innovativ fəaliyyətin ölkənin səmərəli inkişafına təsirindən bəhs edir[15].

Bu istiqamətdə tanınmış rusiyalı tədqiqatçı Z.O.Adamonovanı qeyd etmək olar. Z.O.Adamonovanın "Qloballaşma şəraitində iqtisadi inkişafın innovativ strategiyaları" adlı monoqrafiyasında göstərilir ki, ABŞ dinamik sosial və iqtisadi inkişafa nail olmaq üçün mövcud inkişaf xüsusiyyətlərini maksimum nəzərə alaraq bazar mexanizmlərinin və dövlət tənzimlənməsinin optimal nisbətini tapmağa müvəffəq olmalıdır[16].

Qərb müəlliflərinin çoxsaylı əsərlərində bizim araşdırdığımız məsələnin müxtəlif aspektlərinə həsr olunmuş kifayət qədər ədəbiyyatlara rast gəlinir. İngilis dilli müəlliflər dövlət idarəçiliyi, innovativ inkişaf, innovativ fəaliyyət mövzularına nə-

---

[13] Пригожин, А. Методы развития организаций / А.Пригожин. - Москва: МЦФЭР, - 2003. - 864 с.: 155. Колесова, В.П. Национальные инновационные системы. Монография. / М.Н. Осьмова, В.П. Колесова - Москва: МАКС Пресс, - 2011. - 296 с.

[14] Фатхутдинов, Р. Инновационный менеджмент. Учебник для вузов. 6-е изд / Р. Фатхутдинов. - СПб: Питер, - 2011. - 448 с.

[15] Турчинов, А.И. Кадровая безопасность России: постановка проблемы // - Москва: Государственная служба, - 2010. №4 (66), - с. 18-25. URL: https://pa-journal.igsu.ru/journal/687/

[16] Адаманова, З. Инновационные стратегии экономического развития в условиях глобализации: монография / З.Адаманова. - Симферополь: Крымучпедгиз, - 2005. - 504 с.

zərəçarpacaq qədər effektli töhfələr vermişlər. Belə tədqiqatçılar sırasında D.Ketl, U.Koulman, A.Koul, C.Brodbent, C.Feyk, C.Qrinevey, B.Solter, S.Xart, F.Qeyne, A.Qrantx, D.Norz, G.Stefen, L.Niklas, N.Patrik, N.Petro, R.Linda, L.Kelli, R.Çirsi və başqalarının adlarını çəkə bilərik[17].

Qərb elmi ədəbiyyatında innovativ dövlət idarəçiliyi, innovativ inkişaf sahəsində əhəmiyyətli tədqiqatları ilə seçilən müəlliflərdən biri də K.Pirsondur. K.Pirsonun "Müasir dövlət" əsərində innovativ proseslərin mürəkkəbliyi və dinamikliyi əsaslandırılır[18].

Bu istiqamətdə tanınmış qərb tədqiqatçılarından E.Rocersi xüsusi vurğulamaq olar. E.Rocers "innovasiyaların diffuziyası" nəzəriyyəsində innovasiyaları istehlakçı tərəfindən qəbul edilən yeni düşüncə və ya hərəkət kimi əsaslandırır. İnnovasiyanın üçlü spiralı" konsepsiyasında isə dövlət - innovativ fəaliyyətin tənzimləyicisi, elm – innovasiyaların generatoru, biznes isə - innovasiyaların istehlakçısı kimi çıxış edir[19].

Tədqiqat işində qoyulan problemin elmi-nəzəri əsaslarının araşdırılmasına töhfə vermiş hesab olunan müəlliflərdən D.Osborn və P.Plastriki qeyd edə bilərik. D.Osborn və P.Plastrikin "Bürokratlarsız idarəetmə: dövlətin yenilənməsinin beş strate-

---

[17] Reif, L. The Ombudsman, Good Governance and the International Human Rights System / L. Reif. - Boston: Martinus Nijhoff Publishers, - 2004. – 426 p.; Niklas, L. Introduction to Systems Theory / L.Niklas. - Cambridge: Polity Press, - 2013. – 302 p.; Nicolai, P. The Rebirth of Russian Democracy: An Interpretation of Political Culture / P.Nicolai. - Cambridge, Mass: Harvard University Press, - 1995. – 225 p.; O'Neil, P. Essentials of Comparative Politics / P. O'Neil. - Washington: Norton & Company, - 2017. – 367 p.; Douglass, N. Understanding the Process of Economic Change of the Western World / N. Douglass. - New Jersey: Princeton University Press, - 2010. – 200 p.

[18] Christopher, P. The Modern State / P. Christopher. - London: Routledge, - 2004. - 206 p.;

[19] Rogers, E. DIFFUSION OF INNOVATIONS / E.Rogers. - New York: Macmillan Publishing Co, - 2011. - 236 p.

giyası" adlı kitabı innovativ inkişaf şəraitində dövlət idarəçiliyində səmərəliliyə və rəqabət qabiliyyətinə nail olmaq üçün dərin dəyişikliklərin aparılmalı olduğundan bəhs edir[20].

Beləliklə, bu sahədəki elmi ədəbiyyatların təhlili göstərir ki, nəzərdən keçirilən problemin müxtəlif aspektləri həm Azərbaycan, həm də xarici ölkə alimləri tərəfindən araşdırılmışdır. Buna baxmayaraq mövzu Azərbaycan siyasi elmində dissertasiya səviyyəsində ilk dəfə geniş tədqiq edilmişdir. Məhz bütün bunlar da təqdim edilən dissertasiya işinin mövzusunun seçilməsini şərtləndirmişdir.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqat işinin obyektini Azərbaycan Respublikasında dövlət idarəçiliyinin innovativ inkişafı və onun reallaşması siyasəti, predmetini isə innovativ inkişaf sahəsində Azərbaycan Respublikasının əsas hədəflərinin, onların həyata keçirilməsi siyasətinin xüsusiyyətlərinin, mövcud vəziyyət və gələcək perspektivlərinin araşdırılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın başlıca məqsədi dövlət idarəçiliyində innovativ inkişafın təmin edilməsi xüsusiyyətlərini, təşkili modellərini araşdırmaq və Azərbaycan Respublikasının innovativ inkişaf siyasətinin reallaşmasına yönələn fəaliyyətin tədqiq olunmasından ibarətdir.

Tədqiqat zamanı qarşıya qoyulmuş məqsədə çatmaq üçün araşdırmalarımızın gedişində yerinə yetirməli olduğumuz vəzifələri aşağıdakı kimi müəyyən etmişik:

- innovativ inkişafın əsasları, spesifik cəhətləri və onun nəzəri-siyasi aspektlərinin təhlil edilməsi;
- dünya təcrübəsində müasir innovativ inkişaf mexanizmlərinin dövlət idarəçiliyində tətbiqi səviyyəsinin araşdırılması;
- Azərbaycan Respublikasının dövlət idarəçiliyində innovativ inkişafın siyasi mahiyyəti və konstitusion-hüquqi tənzimlənməsinin müəyyənləşdirilməsi;

---

[20] Осборн, Д. Управление без бюрократов: пять стратегий обновления государства / Д.Осборн, П.Пластрик - Москва: Прогресс, - 2001. - 536 с.

- Azərbaycan Respublikasında innovativ dövlət idarəçiliyi modelinin formalaşması xüsusiyyətlərinin nəzərdən keçirilməsi;
- Azərbaycan Respublikasında dövlət idarəçiliyinin optimallaşdırılmasına dair innovativ texnologiyaların inklüziv inkişaf kontekstində təhlil olunması;
- Azərbaycan Respublikasının siyasi və sosial-iqtisadi sahələrində islahatların innovativ potensialı və onun reallaşdırılması istiqamətlərinin müəyyənləşdirilməsi.

**Tədqiqat metodları.** Dissertasiyada tədqiq olunan problemin araşdırılmasında analiz, sintez, induksiya, deduksiya, ümumiləşdirmə kimi ümumiməntiqi metodlardan, sistemli təhlil, tarixi və müqayisəli politoloji təhlil, kontent-analiz və digər elmi araşdırma metodlarından istifadə olunmuşdur.

Sistemli təhlilin tətbiqi dövlət idarəçiliyində innovativ inkişafı təhlil etməyə imkan vermişdir. Müqayisəli politoloji təhlil metodu vasitəsilə ayrı-ayrı ölkələrin innovativ idarəetmə modelləri qarşılaşdırılmış və müxtəlif aspektlər üzrə ümumiləşdirmələr aparılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar** aşağıdakılardan ibarətdir:

- dövlət idarəçiliyi sistemində innovativ inkişafın dinamik proses kimi siyasi, iqtisadi, sosial və digər sahələrə təsiri getdikcə güclənir;
- dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi istiqamətində islahatların həyata keçirilməsi innovativ dövlət idarəetmə modelinin formalaşdırılmasını şərtləndirir;
- Azərbaycan Respublikası ümummilli inkişaf strategiyasına uyğun olaraq ictimai həyatın bütün sferalarında innovativ inkişafın təmin edilməsinə imkan verən siyasət həyata keçirir. Bu proses innovativ dövlət idarəetmə mexanizmlərinə əsaslanır;
- Azərbaycanda dövlət idarəçiliyi sistemində innovativ islahatların həyata keçirilməsi həmçinin informasiya texnologiyalarının inkişafına yönəlir;

- Azərbaycan Respublikasının dövlət idarəçiliyində innovativ inkişafın təmin edilməsi birbaşa olaraq dövlət idarəçiliyi sistemində keyfiyyət dəyişikliyini şərtləndirir.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqat işinin elmi yeniliyi ilk növbədə dissertasiyada problemin qoyuluşu ilə müəyyən olunur. Daha konkret olaraq tədqiqatın elmi yeniliyini aşağıdakı müddəalarla ifadə etmək olar:

- ilk dəfə olaraq Azərbaycan siyasi elmində dissertasiya səviyyəsində Azərbaycan Respublikasının dövlət idarəçiliyində innovativ inkişafın səciyyəvi xüsusiyyətləri sistemli şəkildə araşdırılmışdır;
- Azərbaycan siyasi elmində hələki az istifadə olunan "innovativ inkişaf", "innovativ dövlət idarəçiliyi", "innovativ idarəetmə texnologiyaları" "inklüziv inkişaf" və s. kimi anlayışlardan istifadə olunmaqla, onların mahiyyəti, siyasi aspektləri açılıb göstərilmişdir;
- Azərbaycan dövlət idarəçiliyi sisteminin innovativ inkişafının təmin edilməsində dünya təcrübəsinin tətbiqi imkanları müqayisəli təhlil edilmiş və Azərbaycanın müasir innovativ inkişafına uyğun modellər təqdim edilmişdir;
- Azərbaycan Respublikasında innovativ dövlət idarəçiliyinin formalaşması və onun inkişaf tendensiyaları araşdırılmışdır;
- innovativ idarəetmə texnologiyalarının effektivliyinin qiymətləndirilməsində mənəvi - dəyər və liderlik yanaşmaları təhlil edilərək, onların əsas müddəaları açılıb göstərilmişdir;
- tədqiqat işində Azərbaycan Prezidenti İlham Əliyevin sosial sahədə xidmətlərin keyfiyyətinin yüksəldilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələrin icrasının təhlili əsasında çətir innovativ texnologiyasının tətbiqi modeli təklif edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, dissertasiya işində irəli sürülən əsas müddəalar və nəzəri ideyalar oxşar mövzularla bağlı gələcək elmi tədqiqat işlərinin və araşdırmaların aparıl-

masında zəmin ola bilər. Həmçinin innovativ inkişaf, innovativ dövlət idarəçiliyi, innovativ idarəetmə texnologiyaları və s. məsələlərlə bağlı təsəvvürlərin yaranmasında tədqiqatın nəzəri ideyaları əhəmiyyətli ola bilər. Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, dissertasiyanın materiallarından bakalavr və magistratura pillələrində siyasi elmin müvafiq fənlərinin tədrisində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Mövzunun tədqiqi prosesində müəllifin əldə etdiyi əsas qənaətlər doktorant və dissertantların elmi-praktik konfranslarındakı məruzələrində, Respublika və xarici mətbuatda nəşr etdiyi məqalələrində, müxtəlif elmi konfranslarındakı məruzə və çıxışlarında, onların dərc olunan materiallarında əksini tapmaqla elmi ictimaiyyətə təqdim edilmişdir. Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Politologiya və siyasi idarəetmə" və "Dövlət qulluğu və kadr siyasəti" kafedralarının birgə iclasında keçirilmiş ilkin müzakirədə aprobasiyadan keçmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası.

**Dissertasiya işinin ümumi həcmi.** Dissertasiya işi giriş 3 fəsil, 7 paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısı və dissertasiyanın əsas nəticələrini əks etdirən nəşr olunmuş elmi əsərlərin siyahısından ibarətdir. Giriş - 25052, I Fəsil - 70523, II Fəsil - 60313, III Fəsil - 101428, Nəticə - 17971, ümumi həcm – 275287 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **Giriş** hissəsində tədqiqat mövzusunun aktuallığı əsaslandırılır, problemin işlənmə dərəcəsi təhlil edilir, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri müəyyən edilir, onun elmi yeniliyi, müdafiəyə çıxarılan müddəalar, həmçinin nəzəri və praktiki əhəmiyyəti göstərilir, işin aprobasiyası və strukturu haqqında məlumat verilir.

Dissertasiyanın "**Dövlət idarəçiliyinin innovativ inkişafı probleminin nəzəri- konseptual aspektləri"** adlı birinci fəsli üç paraqrafdan ibarətdir. Bu fəslin "Dövlət idarəçiliyinin innovativ inkişafının əsasları və spesifik cəhətləri" adlı birinci paraqrafında ədəbiyyatın təhlili və tədqiqatın gedişindən alınan nəticələrin ümumiləşdirilməsi əsasında göstərilir ki, innovativ inkişaf siyasi sferada dayanıqlı inkişafın, iqtisadi və digər sahələrdə modernləşmənin, həmçinin cəmiyyətin sosial rifahının yüksəldilməsi məqsədi ilə milli, mədəni amillər nəzərə alınmaqla yeni elmi-texniki, siyasi və sosial-iqtisadi ideyaların və biliklərin praktikada sistemli şəkildə tətbiqi prosesidir. İnnovativ inkişaf Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmiş "Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyi"nin əsas prinsiplərindən biri kimi çıxış edir[21] . İnnovativ inkişaf dinamik bir proses kimi sosial, siyasi, iqtisadi və digər sahələrə təsir göstərir. Başqa sözlə innovativ inkişaf inteqrasiya olunmuş nəticə, elm və texnologiyanın, azad bazarların, institutların, təsisatların inkişafının törəməsi, inhisarçılıq və rəqabətin birləşməsidir. İnnovativ inkişafın ən mühüm xüsusiyyəti ondan ibarətdir ki, o bütün sektor və sahələrdə mövcuddur.

Bundan əlavə bu paraqrafda innovativ inkişafın əsasları,

---

[21] Повестка дня в области устойчивого развития на период до 2030 года: [Электронный ресурс] – 2015. URL:https://www.unssc.org/sites/default/files/2030_agenda_for_sustainable_development_-_primer_russian.pdf

spesifik cəhətləri, dövlət idarəçiliyi sistemində innovasiyaların təsnifləşdirilməsi və sistemləşdirilməsi məsələləri, həmçinin innovativ dövlət idarəçiliyi anlayışının mahiyyəti, səciyyəvi xüsusiyyətləri də qeyd olunur.

İnnovativ inkişafın spesifik cəhətlərinin təhlili zamanı innovativ proseslərin mürəkkəbliyi və dinamikliyi də şərh olunur. İnnovativ dövlət idarəçiliyinin təhlili zamanı strukturalist və prosessual yanaşmadan istifadə edilir. Birinci yanaşmada innovasiya stabil və sabit elementlərdən ibarət quruluş kimi çıxış edir. İkinci yanaşma innovasiyaları sosial, siyasi, iqtisadi və digər amillərdən təsirlənərək formalaşıb fəaliyyət göstərən dinamik bir kateqoriya hesab edir.

Bununla yanaşı, həmçinin vurğulanır ki, innovativ inkişaf modelləri hüquqi, iqtisadi və siyasi tədbirlər kompleksidir. Bu tədbirlər kompleksinin həyata keçirilməsinə dövlət rəhbərlik edir Amerikalı politoloq D.Dyudni hesab edir ki, *innovativ mühit siyasi hakimiyyətin xarakteri ilə müəyyən edilir*[22]. İnnovativ inkişaf strateji qərarların hazırlanmasında təkcə dövlətlərin, biznes strukturlarının iştirakını nəzərdə tutmur, həm də vətəndaş cəmiyyəti subyektlərinin iştirakını nəzərdə tutan mürəkkəb prosesdir. İnnovativ inkişafı hər hansı bir dövlət orqanın fəaliyyəti ilə bağlamaq olmaz, çünki bu, bütün ictimai-siyasi sistemin inkişafına aiddir.

**Birinci fəslin ikinci paraqrafı "Dövlət idarəçiliyinin təkmilləşdirilməsi və ona təsir edən amillər"** adlanır. Bu paraqrafda dövlət idarəçiliyinin təkmilləşdirilməsinin zəruriliyindən bəhs edilir. Həmçinin bu prosesə təsir göstərən daxili və xarici amillər sadalanır və izah edilir. Bu barədə bir çox tədqiqatçıların, alimlərin fikirlərinə və mülahizələrinə istinad olunur.

---

[22] Deudney, D. Dividing Realism: Structural Realism versus Security Materialism on Nuclear Security and Proliferation // Security Studies, - 1993. Vol. 2. № 3/4, - p. 8-36

Eyni zamanda dövlət idarəçiliyində demokratik dəyərlərin, norma və prinsiplərin əhəmiyyəti təhlil edilir, həmçinin insan hüquq və azadlıqlarının önəmində əsaslandırılır. L.Kaxaone hesab edir ki, *"demokratik prinsiplər dövlət idarəçiliyi sistemini tənzimləmək üçün ictimai səylərlə ümumiləşdirilmiş kod hesab edilməlidir. Demokratik amillərin kommunikativ və inteqrativ funksiyası dövlət idarəçiliyinin effektivliyini artırır*"[23] .

Tədqiqatın bu hissəsində qeyd olunur ki, dövlət idarəçiliyi bütün idarəetmə növlərindən vacib spesifik xüsusiyyətlərinə görə yəni, idarəetmə obyektinə legitim-hüquqi təsirinə görə fərqlənir. Dövlət idarəçiliyi cəmiyyətin siyasi irsinin tipik xüsusiyyətlərini əks etdirir və milli siyasi prosesin sosiomədəni fenomeni kimi çıxış edir və cəmiyyət həyatının bütün sahələrinin unikal tənzimləyicisidir. Səmərəli dövlət idarəçiliyi olmadan ölkənin innovativ inkişafı əldə edilə bilməz, çünki onlar arasında sıx bağlılıq mövcuddur. Dünya təcrübəsindən çıxış edərək qeyd edə bilərik ki, innovativ inkişafa mükəmməl strateji idarəetmə sisteminə malik, qəbul edilmiş plan və strategiyaları səmərəli həyata keçirən, innovativ proseslərin tənzimlənməsində fəal iştirak edən qabaqcıl, lider ölkələr nail ola bilər. Bütövlükdə demək olar ki, dövlətin innovativ fəaliyyəti ölkənin səmərəli inkişafı üçün yeni nəticələr tapmaq və əldə etməkdir.

**Birinci fəslin üçüncü paraqrafı "Dünya təcrübəsində müasir innovativ inkişaf mexanizmlərinin dövlət idarəçiliyində tətbiqi"** adlanır. Bu paraqrafda müasir innovativ inkişaf mexanizmlərinin dövlət idarəçiliyində tətbiqi və bu sahədə dünya təcrübəsinin öyrənilməsindən bəhs olunur. Bu məsələlər əsasən Avropa dövlətlərinin timsalında təhlil olunur. Bu paraqrafda həmçinin ötən əsrin 80-ci illərində mövcud idarəetmənin yenilənməyə ehtiyacı olduğu və bu istiqamətdə bir çox dövlətlərin islahatlar həyata keçirdiyi təhlil olunur. Hal-hazırda inno-

[23] Lawrence, C. The Modern Political Tradition: Hobbes to Habermas / C.Lawrence. - Virginia.: The Teaching Company, - 2014. - 289 p.

vativ inkişaf şəraitində dövlət idarəçiliyində daha yüksək effektivliyə və rəqabət qabiliyyətinə nail olmaq üçün dərin dəyişikliklər aparılır. Dövlət idarəçiliyinin bəzi nəzəriyyəçiləri bu dəyişiklikləri "*antibürokratik idarəçilik inqilab*"ı kimi dəyərləndirirlər[24].

Tədqiqatda həmçinin qeyd olunur ki, innovativ mexanizmlərin dövlət idarəçiliyində tətbiq olunması bütövlükdə dövlət idarəçiliyində ciddi keyfiyyət dəyişikliyini şərtləndirir. Ümumiyyətlə, cəmiyyətdə və dünya miqyasında bütün sferalarda baş verən dəyişikliklər bütövlükdə dövlət idarəetməsi sahəsində yeni yanaşmaları tələb edir ki, bunlar da innovativ mexanizmlərdə öz ifadəsini tapır.

Bu paraqrafda xüsusilə vurğulanır ki, xarici təcrübənin təhlili dövlət idarəçiliyində "New Public Managment" və "Good Governance" kimi 2 əsas konsepsiyanı müəyyən etməyə imkan verir. Bu konsepsiyaların mahiyyəti, məqsəd və xüsusiyyətləri əsaslı şəkildə izah edilərək təhlil olunur.

Eyni zamanda bu paraqrafda Türkiyənin innovativ dövlət idarəçiliyi modeli də təhlil edilir. Tədqiqatın bu hissəsində qeyd olunur ki, Türkiyə 2022-ci ildə qlobal innovasiya indeksində 132 ölkə arasında 37-ci yeri tutmuşdur[25]. Bu baxımdan Azərbaycan Respublikası Türkiyənin innovativ dövlət idarəçiliyi modeli təcrübəsindən yararlana bilər. Türkiyə Respublikasını qlobal liderlər arasında möhkəmlətmək üçün innovasiyaların tətbiqi zəruri idi. Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə hökumət ölkənin innovativ inkişafı üzrə "2023 Vizyonu" adlı iddialı dövlət proqramı hazırlayıb. "2023 Vizyonu" proqramı iqtisadi, sosial, təhsil və turizm sahələrində innovativ inkişafı nəzərdə tutur.

Həmçinin bu paraqrafda Azərbaycan Respublikasının in-

---

[24] Осборн, Д. Управление без бюрократов: пять стратегий обновления государства / Д.Осборн, П.Пластрик - Москва: Прогресс, - 2001. - 536 с.

[25]Küresel İnovasyon Endeksi'nde Türkiye'den tarihi rekor: [Elektronik kaynak] - 29 eylül, 2022. URL: https://www.aa.com.tr/tr/ekonomi/kuresel-inovasyon-endeksi-nde-turkiyeden-tarihi-rekor/2698349

novativ dövlət idarəçiliyi modelinin əsas istiqamətləri təhlil olunur və bu istiqamətdə həyata keçirilmiş işlər qeyd edilir.

**Tədqiqat işinin ikinci fəsli "Azərbaycan Respublikasında innovativ dövlət idarəçiliyinin formalaşmasının əsasları və spesifik cəhətləri" adlanır. Bu fəslin "Azərbaycan Respublikasının dövlət idarəçiliyində innovativ inkişafın siyasi mahiyyəti və konstitusion – hüquqi tənzimlənməsi" adlanan birinci paraqrafında** Azərbaycan Respublikasında innovativ inkişafın siyasi – hüquqi əsasları araşdırılmışdır. Vurğulanır ki, Azərbaycan Respublikasının dövlət idarəçiliyində innovativ inkişafın siyasi mahiyyəti dövlət idarəçiliyi tərəfindən yaradılan daxili və xarici şəraitlə müəyyən olunur. Bu dövlətin siyasi, sosial-iqtisadi və mənəvi-mədəni inkişafını, həmçinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünün qorunmasını təmin edir. Azərbaycan Respublikasının dövlət idarəçiliyində innovativ inkişafın əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Bu paraqrafda qeyd edilir ki, 1991-ci ildə müstəqilliyə yenidən qovuşan ölkəmiz həm kənar təzyiqlər, həm də hakimiyyətdəki səriştəsiz, bacarıqsız rəhbərlər ucbatından ilk günlərdən öz yeni, tarixi inkişaf yolunu düzgün müəyyən edə bilmədi. Siyasi, sosial-iqtisadi və idarəçilik problemləri kəskin xarakter almışdı. 1993-cü ildə xalqın təkidi ilə Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra ölkədə yaradılan sabitlik, əlverişli iqtisadi mühit Azərbaycan Respublikasını qısa bir zaman ərzində böyük investisiyalar məkanına çevirdi. Eyni zamanda bu paraqrafda 1993-2003-cü illərdə Ulu Öndər Heydər Əliyevin dövlət quruculuğu sahəsindəki işlərindən, idarəetmənin siyasi-hüquqi bazasının yaradılmasından da bəhs olunur. Neft strategiyasının siyasi mahiyyəti, Ümummilli Lider Heydər Əliyevin verdiyi fərman və sərəncamların, qəbul edilmiş qərarların, həyata keçirilmiş iqtisadi, siyasi, hüquqi sahədə fəaliyyətlərin innovativ inkişafa təsirləri ətraflı şəkildə təhlil edilmişdir.

Tədqiqatda həmçinin qeyd edilir ki, Ümummilli Lider

Heydər Əliyevin dövlət idarəçiliyi sistemində əsasını qoyduğu innovativ inkişaf onun layiqli siyasi varisi cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət idarəçiliyi sistemində səmərəliliyin artırılması, təkmilləşdirilməsi və innovativ inkişafın təmin edilməsi istiqamətində Prezident İlham Əliyev tərəfindən həyata keçirilən fundamental struktur və kadr islahatları, dövlət idarəçiliyinin rəqəmsallaşdırılması, o cümlədən nəqliyyat tranzit layihələri ətraflı şəkildə təhlil edilmiş, innovativ inkişaf üçün geniş imkanlar yaratdığı xüsusilə vurğulanmışdır.

**Bu fəslin ikinci paraqrafı "Azərbaycan Respublikasında innovativ dövlət idarəçiliyi modelinin formalaşması prosesinin politoloji təhlili" adlanır.** Bu paraqrafda Azərbaycan Respublikasında innovativ dövlət idarəçiliyi modelinin formalaşması prosesi, səciyyəvi xüsusiyyətləri təhlil edilir. Həmçinin bu paraqrafda innovativ idarəetmə modellərinin təsnifatı ətraflı şəkildə nəzərdən keçirilmişdir. Şərq modeli Yaponiya Çin, Hindistan, Sinqapur, İran Qərb modeli isə Amerika Birləşmiş Ştatları, Kanada, Almaniya, Böyük Britaniya kimi dövlətlərin timsalında araşdırılmışdır. Vurğulanır ki, Azərbaycan Qərb və Şərq modellərinin sintezinin nümunəsini yaratmaq üçün yaxşı imkanlara malikdir. Çünki Azərbaycan Şərqlə Qərbin qovuşduğu məkan olaraq, onlar arasında körpü missiyasını yerinə yetirən, türk-islam sivilizasiyasına böyük töhfələr verən fərqli mədəniyyətlərin mövcud olduğu, tolerant şəraitə, milli, mədəni və mənəvi ənənələrə malik müxtəlif dəyərlərin mövcud olduğu həmçinin dövlətin modernləşməsini, hakimiyyətin dünyəviliyini konstitusiyada elan edən müsəlman yönümlü bir ölkədir.

Bu paraqrafda qeyd edilir ki, Qərbin innovativ dövlət idarəçiliyi modelində, iqtisadi inkişaf demokratik prinsiplərlə əlaqələndirilir. Lakin Şərqin innovativ dövlət idarəçiliyi modelinə müraciət etsək görürük ki, innovativ inkişafın olması üçün demokratiya, yaxud demokratik prinsiplərin olması mütləq deyil. Məsələn, Şərqdə demokratiya gec inkişaf etdi, Çində ümumiy-

yətlə demokratiya yoxdur, amma iqtisadi inkişaf var. Bunun da əsas səbəbi dəyərlərin güclü olması və eyni zamanda fundamental elmi saxlamaqla innovasiyaların tətbiq edimәsidir. Hansı ki, bunu Yaponiya, Çin və digər Asiya ölkələri tətbiq etdilər və müəyyən nəticələr əldə etmiş oldular. Bu bir reallıqdır ki, Qərb nə qədər iqtisadi cəhətdən inkişaf etsə də, bu gün Qərbin çox ciddi problemləri var. Məsələn, miqrasiya, ailələrin deqradasiya olması və s. Belə ki, qərb alimləri özlərinin dəyərlərinin zəifləməsi fonunda şərqin, yaxud yapon və çin möcüzəsinin səbəblərini axtarmağa çalışırdılar. Belə nəticəyə gəlirlər ki, dövlət idarəçiliyində innovativ inkişafın təmin edilməsi üçün sintez amili olmalıdır, yəni həm milli mentalitet, həm də ümumbəşəri dəyərlər nəzərə alınmalı və tətbiq edilməlidir. Belə ki, sintez amili Azərbaycanın innovativ dövlət idarəçiliyi modelində ətraflı şəkildə təhlil edilmişdir.

Tədqiqat işində innovativ dövlət idarəçiliyinə, innovativ inkişaf meyarlarına uyğun gələn bir çox modellər və onları xüsusiyyətləri göstərilir. Azərbaycan Şərq ölkələrinin və Avropa milli təcrübəsini özündə birləşdirən ən yaxşı innovativ dövlət idarəçiliyi modellərinin (Yaponiya, Çin, Türkiyə, İsrail və s.) təcrübəsini öyrənib və istifadə etməsi tədqiqat işində araşdırılmışdır.

Dissertasiyanın üçüncü fəsli **“Azərbaycan Respublikasının müasir inkişaf mərhələsində innovativ dövlət idarəçiliyi və onun inkişaf tendensiyaları”** adlanır. Bu fəslin **“Azərbaycan Respublikasında dövlət idarəçiliyinin optimallaşdırılmasına dair innovativ texnologiyalar inklüziv inkişaf kontekstində”** adlı birinci paraqrafında qeyd olunur ki, milli və qlobal maraqları nəzərə alan Azərbaycan Respublikanın həyata keçirdiyi məqsədyönlü siyasət, dövlət idarəçiliyinin modernləşdirilməsi, innovativ idarəetmə texnologiyalarının tətbiqi ölkəmizin beynəlxalq arenada iqtisadi və siyasi önəminin getdikcə artmasına səbəb olmuşdur. Eyni zamanda dövlət idarəçiliyi sistemində tətbiq olunan innovativ idarəetmə texnologiyalarının

(Sinergetik, Komplimentar, Kompensasion) tətbiqi, elektron idarəçiliyin fəaliyyəti təhlil edilir. İnnovativ idarəetmə texnologiyalarının effektivliyi təhlil edilərkən mənəvi - dəyər və liderlik yanaşmalarını daxil etmək təklif edilmişdir. Mənəvi - dəyər yanaşması milli prioritetlər və dəyərlər əsasında innovativ inkişafın məqsədlərini müəyyən edir. Liderlik yanaşması innovasiyaların idarə edilməsi istiqamətində Azərbaycanın milli maraqlarına cavab verən və beynəlxalq aləmdə regional və qlobal aktorlarla tərəfdaşlığı gücləndirən dövlət proqramlarının və milli layihələrin hazırlanmasında ifadə olunur. Liderlik yanaşmasına misal olaraq Ümummilli Lider Heydər Əliyevin neft strategiyasını və 2003-cü ildə “Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (Elektron Azərbaycan)”-nı göstərmək olar.

Tədqiqat işində vətəndaşlara xidmətin yüksəldilməsi istiqamətində tədbirlər də araşdırılmışdır. Sosial sahədə xidmətlərin keyfiyyətinin yüksəldilməsi və geniş əhali üçün əlçatanlığın təmin edilməsi ilə bağlı qarşıya qoyulan vəzifələrin təhlili əsasında çətir innovativ texnologiyası irəli sürülmüşdür. Çətir texnologiyası dedikdə - əsas struktur öz rəhbərliyi altında bir neçə təşkilatı birləşdirir. İnnovativ texnologiyalara əsaslanan bu təşkilatlar əhalinin müxtəlif qruplarına sosial xidmət göstərir. DOST Agentliyi son dərəcə mühüm çətir texnologiyasıdır. Məsələn, DOST Agentliyi özündə bir neçə texnologiyanı birləşdirir: “Smart DOST”, “DOST Mediasiya Məkanı” texnologiyası və s. .

Tədqiqatın bu hissəsində qeyd edilir ki, həyata keçirilən uğurlu innovativ inkişaf strategiyası Azərbaycanda inklüziv cəmiyyətin formalaşmasında və inkişafında mühüm rol oynayır. İnklüziv inkişafın təmin edilməsi dövlət idarəçiliyində effektiv surətdə tətbiq edilən innovativ idarəetmə texnologiyalarından asılıdır. Səmərəli sosial siyasət, iqtisadi inkişaf və yüksək ixtisaslı kadrların hazırlanması inklüziv inkişafın mühüm şərtlərindən biri kimi çıxış edir. Müasir dövrdə inklüziv inkişaf dünya ölkələri üçün başlıca prioritetdir.

Üçüncü fəslin **“Azərbaycan Respublikasının siyasi və sosial-iqtisadi sahələrində islahatların innovativ potensialı və onun reallaşdırılması istiqamətləri”** adlı son paraqrafında ölkə prezidenti İlham Əliyevin müəllifliyi ilə aparılan islahatlar təhlil olunmuşdur. İslahatlar nəticəsində cəmiyyət həyatının bütün sferalarında fundamental dəyişikliklərin baş verdiyi və Azərbaycanın ən qüdrətli dövlətə çevrildiyi vurğulanmış və idarəetmənin innovativ inkişafı istiqamətində həyata keçirilən siyasətin xüsusi əhəmiyyət daşıdığı qeyd edilmişdir. Bu kontekstdə Birinci vitse-prezidentlik və “Xüsusi nümayəndəlik” institutunun təsis edilməsini qeyd edə bilərik. 2016-cı il 26 sentyabr tarixində Konstitusiya islahatları ilə bağlı keçirilən referenduma əsasən Birinci vitse-prezidentlik institutunun təsis edilməsidir. Bu təsisat dövlət idarəçiliyi sisteminin yeni idarəetmə modelidir. Bu vəzifəyə Mehriban xanım Əliyevanın təyin edilməsini ölkəmizdə gender bərabərliyinin təmin edilməsində yeni dövlət idarəçiliyi institutu hesab etmək olar. Birinci vitse-prezidentlik institutu da ictimai həyatın bütün sferalarında innovativ inkişafa nail olmaq üçün uğurlu layihələrin reallaşdırılmasında yaxından iştirak edir. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə uyğun olaraq işğaldan azad olunmuş ərazilərdə prezidentin xüsusi nümayəndəlikləri Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 yanvar fərmanı ilə yaradılıb. Xüsusi nümayəndəliyin təsis edilməsində əsas məqsəd – işğaldan azad olunan əraziləri yenidən qurmaq, idarəetmədə səmərəliliyin artırılması istiqamətində digər qurumlar, təşkilatlarla fəaliyyəti və əlaqələri gücləndirməkdir. İşğaldan azad edilmiş ərazilərdə ilk xüsusi nümayəndəlik Prezident İlham Əliyevin 2021-ci il 27 yanvar tarixli Sərəncamı ilə Şuşa rayonunda yaradılmışdır. Əsas məqsəd Azərbaycan mədəniyyətinin paytaxtı olan Şuşanı planlı və sistemli şəkildə yenidən qurmaq, tarixi, mədəni irsi bərpa etmək, sakinlərin rahat və müasir şəhər mühitində yaşamaları üçün qarşıya qoyulan tapşırıqları vaxtında və lazımi səviyyədə yerinə yetirməkdən

ibarətdir. Dövlət idarəçiliyi sistemində səmərəliliyin təmin olunması istiqamətində yaradılan bu təsisatı yeni idarəetmə forması hesab etmək olar. Tədqiqatın bu hissəsində İkinci Qarabağ Müharibəsində və lokal xarakterli antiterror tədbirlərində əldə olunan qələbənin innovativ inkişaf üçün geniş imkanlar yaratdığı qeyd edilmişdir.

Bu paraqrafda həmçinin sosial sferada həyata keçirilən islahatlar təhlil edilmiş, "ASAN", "ABAD", "DOST" xidmətlərinin fəaliyyətləri araşdırılmışdır. Tədqiqatın bu paraqrafında Azərbaycan Respublikasının dövlət idarəçiliyində innovativ inkişafın təmin olunmasında enerji sektorunun inkişafında görülən işlər diqqətə çatdırılır. Eyni zamanda iqtisadi sahədə həyata keçirilmiş işlər təhlil edilmiş, bu istiqamətdə verilən fərman, sərəncamlar, qəbul edilmiş dövlət proqramları, strateji yol xəritələri ətraflı araşdırılmışdır.

Dissertasiyanın **"Nəticə"** hissəsində elmi araşdırmaya yekun vurulur, ümumiləşdirmələr əsasında nəzəri və praktiki xarakterli təklif və tövsiyələr irəli sürülmüşdür. Belə qənaətə gəlinir ki, müasir dövrdə dövlət idarəçiliyinin bütün sferalarında innovativ inkişafın təmin edilməsi hər bir dövlətin, o cümlədən Azərbaycan Respublikasının qarşısında duran mühüm vəzifələrdən biridir. Bu sahədə dövlət başçımızın İlham Əliyevin rəhbərliyi altında dünya təcrübəsi, elmi nailiyyətlər nəzərə alınaraq, özünün universallığı və sistemliliyi ilə digər ölkələr üçün də nümunə ola biləcək innovativ inkişaf strategiyası reallaşdırılır və bu siyasət dayanıqlı sosial-iqtisadi inkişafın təmin edilməsinə, bütün sahələrdə islahatların həyata keçirilməsinə, inklüziv cəmiyyətin formalaşmasına və əhalinin rifahının daha da yaxşılaşdırılmasına geniş imkanlar yaradır. Bu baxımdan Azərbaycan Respublikasının dövlət idarəçiliyində innovativ inkişafın gücləndirilməsi məqsədilə innovativ inkişaf və rəqabət qabiliyyətinin proqnozlaşdırılması üzrə milli siyasi analitiklər məktəbini inkişaf etdirmək tövsiyə olunmuş, dövlət idarəçiliyinin bu sahənin inkişafı üçün Qərbin aparıcı universitetləri və

tədqiqat mərkəzləri ilə əlaqələr qurmaq təklif edilmiş, innovativ risklərin sığortası üçün bir sıra siyasi və strateji tədbirlərin həyata keçirilməsi tövsiyə olunmuş, böyük potensialı olan innovativ layihələrin reallaşdırılması istiqamətində işlərin təkmilləşdirilməsi təklif edilmişdir.

**Dissertasiyanın əsas nəticələrini əks etdirən nəşr olunmuş elmi əsərlər:**


1. Azərbaycan Respublikasında dövlət idarəçiliyinin formalaşmasında Heydər Əliyevin rolu // Heydər Əliyev və Azərbaycanın milli inkişaf strategiyası" mövzusunda doktorant və dissertantların elmi-praktiki konfransının materialları. - Bakı: Aspoliqraf, - 2018, - s. 99-106.
2. Azərbaycan Respublikasında dövlət idarəçiliyinin səmərəliliyinin artırılmasında innovasiyaların tətbiqi // Doktorantların və gənc tədqiqatçıların XXII Respublika elmi konfransının materialları. - Bakı: ADPU, - 2018, - s. 29-32.
3. İnnovativ idarəetmə modelləri və onların səmərəliliyi problemi // - Bakı: İnsan və biosfer" (MaB, UNESCO). Azərbaycan milli komitəsinin əsərləri jurnalı, - 2019. № 14, - s. 271-280.
4. Dövlət idarəçiliyində innovativ inkişafın ideya-nəzəri əsasları // - Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal, - 2019. № 3(67), - s. 177-184.
5. Dövlət idarəçiliyində innovativ inkişaf mexanizmlərinin tətbiqi: dünya təcrübəsinin politoloji təhlili // - Bakı: "Geostrategiya" ictimai-siyasi, elmi-nəzəri jurnal, - 2019. №4(52), - s. 32-36.
6. Инновационное государственное управление как национально-государственный интерес // Одесса: Науковий журнал «Politicus», - 2019. № 5, - с. 44-48.
7. Azərbaycan Respublikasında innavativ dövlət idarəçiliyi sisteminin formalaşması və inkişaf tendensiyaları // - Bakı:

Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri jurnalı, - 2020. №53, - s. 145-150.

8. Azərbaycan Respublikasının dövlət idarəçiliyində innovativ inkişafın əsas hədəfləri və onun həyata keçirilməsi vasitələri // – Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal, – 2020. – №3(71). – s. 305-312.

9. Azərbaycan cəmiyyətinin inkişafında sosial və iqtisadi sahələrdə innovasiya siyasətinin rol // - Bakı: İnsan və biosfer" (MaB, UNESCO). Azərbaycan milli komitəsinin əsərləri jurnalı, - 2020. № 15, - s. 371-384.

10. Информационные аспекты инновационного государственного управления в Азербайджанской Республике // - Модели и методы повышения эффективности инновационных исследований: сборник статей по итогам Международной научно-практической конференции, - Стерлитамак: АМИ, 2020, - с. 46-49.

11. Azərbaycan Respublikasının dövlət idarəçiliyi sistemində innovativ inkişafın təmin olunmasında Prezident İlham Əliyevin rolu // Heydər Əliyevin dövlətçilik ideyaları və vətən müharibəsində tarixi qələbəmizi şərtləndirən əsas amillər mövzusunda doktorant və dissertantların elmi-praktiki konfransının materialları. – Bakı: Aspoliqraf, 2022, - s. 85-92.

Dissertasiyanın müdafiəsi "21" dekabr 2023-cü il tarixində saat 14:00-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı ş., Lermontov küçəsi, 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "20" noyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15.11.2023
Kağızın formatı:A5
Həcm: 40.857
Tiraj:100